UOT 32:93/94

XƏYYAM İSMAYILZADƏ
Bakı Dövlət Universiteti
Beynəlxalq münasibətlər kafedrası,
Siyasi elmlər üzrə fəlsəfə doktoru
Ekonika22@yahoo.com

ABŞ-ÇXR MÜNASİBƏTLƏRİNDƏ ZİDDİYYƏTLİ MƏQAMLARIN ÜMUMİ SƏCİYYƏSİ

DOI: https://doi.org/10.36719/2708-065X/107/124-128

Məqalədə soyuq müharibə bitdikdən sonra ABŞ-ÇXR arasında əlaqələrin inkişafında ziddiyyətli məqamların, xüsusilə, Tayvan məsələsinin araşdırılması haqqında məlumat verilir. Bu problem uzun illər ərzində iki dövlət arasında daima gərginlik yaratmış, zamanın inkişafından asılı olaraq həll olunması istiqamətində müxtəlif fikirlər formalaşmış, birgə səylər göstərilmiş və ümumi razılıqlar əldə olunmuşdur ki, bütün bunlar geniş şəkildə burada əks olunmuşdur.

Açar sözlər: ABŞ, ÇXR, Tayvan, Yaponiya, BMT, Filippin arxipelaqı, Ümumdünya Ticarət Təşkilatı, soyuq müharibə, diplomatiya, müstəqillik.

Giriş. Tayvan Çin və Yaponiyanın cənubunda, Filippin arxipelaqının şimalında yerləşən bir böyük və çoxlu kiçik adalar qrupudur. O, qısa bir dövrdə Hollandiyanın müstəmləkəsi olmuş, sonra isə Çin sülalələri tərəfindən idarə olunmuşdu. 1895-ci ildə Çin-Yaponiya müharibəsindən qalib ayrılan ikinci tərəf adanı öz ərazisinə qatmışdır. 1895-1945-ci illərdə adanın idarəsi yaponların əlində olmuşdur. 1945-ci ildə Yaponiyanın dünya müharibəsində məğlub olması ilə onun nəzarəti Çinə keçdi. Bu prosesdə 1943-cü ildə imzalanmış Qahirə bəyannaməsinin xüsusi rolu var idi. Yaponiya ilə müharibə Homindan partiyasının daxildəki gücünü azaltmışdı. Vəziyyətdən istifadə edən kommunistlər iqtidarda güclənməyə başladılar. Meydana gələn homindan-kommunist qarşıdurması bir müddət sonra adaya da sıçradı, Çan Kay Şinin rəhbərlik etdiyi homindançılar 1949-cu ildə adaya gələrək paytaxtı Taypey olan Çin Respublikasını qurdular. Tayvan 1988-ci ilə qədər bu partiya tərəfindən, daha sonra çoxpartiyalılıq sisteminə keçirilərək idarə olunmuşdur. Eyni ildə Tayvanın yeni prezidenti də seçilmişdir.

1970-80-ci illərdə faktiki müttəfiq kimi çıxış edən ABŞ və Çin hökumətləri hər iki tərəfin yüksək səviyyəli təmaslarının olmadığı halda narazılıq və qarşılıqlı ittihamlarla ayrılırdılar. Məhz bu məqamda ABŞ Prezidenti C.Buş bərpası mümkün olmayan fasilədən qaçmaq üçün ÇXR lideri Den Syaopinlə uzunmüddətli münasibətlərə əl atdı. Bu kontekstdə o, 1989-cu ilin iyunun 21-də Den Syaopinə uzun və şəxsi məktub yazdı. Den Syaopin Buşun məktubuna ertəsi gün cavab verdi və ABŞ nümayəndəsinin Pekinə gəlişini xoş qarşıladığını bildirdi. Bu yolla iyulun 1-də ÇXR-da Tiananmen meydanında baş verən zorakılıqdan üç həftə sonra Prezident C.Buş milli təhlükəsizlik müşaviri Brent Skoukroft və dövlət katibinin müavini Lourens İqlburqeri gizli şəkildə Pekinə göndərdi. Keçirilən görüşlərdə Çin lideri Den Syaopin C.Buşu tərifləyərək onun dostluq bəyanatlarına cavab vermiş, lakin o, münasibətlərdəki gərginliyin səbəbini ABŞ-ın üstünə atmışdır (1, s.228).

Bu hadisələrdən bir müddət əvvəl ABŞ 1954-cü ildə Cənub-Şərqi Asiya Əməkdaşlıq Təşkilatının yaradılmasına rəhbərlik edirdi. Sözügedən təşkilatın məqsədi regionu kommunist təhlükəsinə qarşı birləşdirmək idi. Amerika Tayvan lideri Çanqay Şek ilə qarşılıqlı müdafiə sazişi imzaladı. Çin Xalq Respublikası bunu öz milli təhlükəsizliyinə təhdid kimi qiymətləndirdi və 1954-cü ilin sentyabrında Cinmen adasını bombaladı. Daha sonra bombardmanı Mazu və Daçen adalarına qədər genişləndirdi. Beləliklə, 1954-cü ilin sentyabrında Koreya müharibəsindən dərhal sonra Tayvandakı millətçi hökumətin ərazi suları daxilində olan Quemoy adasının bombalanması ilə "Sentyabr böhranı" olaraq da bilinən Birinci Tayvan Boğazı böhranı başladı (2).

Vətəndaş müharibəsi və sonrakı dövrdə ABŞ-ın Tayvana münasibətində ikili xüsusiyyətlər özünü göstərirdi. ABŞ 1971-ci ilədək kommunistlərə qarşı Çan Kay Şi və onun tərəfdarlarını dəstək-

ləyir, Çin Respublikasını və onun BMT-dəki təmsilçi funksiyasını tanıyırdı. 1979-cu ildə ÇXR-lə diplomatik əlaqələr yarandıqdan sonra isə ABŞ Tayvanı dəstəkləmək siyasətindən imtina edir və Çin qarşısında bir çox güzəştlərə gedirdi. ÇXR qurulduqdan sonra ada ətrafında ilk böhran 1954-cü ildə baş verən birinci Tayvan boğazı böhranı oldu.Çin lideri M.Tszedunun göstərişi ilə Tayvana məxsus kiçik adalar qrupu bombalandıqdan sonra ABŞ sərt reaksiya verərək Tayvana hərbi-siyasi dəstək verdi. ABŞ-ın bu addımını xoş qarşılamayan Çin adanı yenidən bombaladı və ikinci Tayvan boğazı böhranı (1958) yarandı. 1954-cü ildə ABŞ və Tayvan arasında "Birgə müdafiə haqqında razılaşma" imzalandı [3,s.156]. Razılaşmanın şərtlərinə görə Tayvan xarici müdaxiləyə məruz qaldıqda ABŞ onun təhlükəsizliyini özü təmin edəcəkdir. Çan Kay Şi bu razılaşmadan yola çıxaraq Çinə hücum planı hazırlayır və ABŞ-dan hərbi dəstək almaq istəyirdi. Ancaq ABŞ Çinə qarşı belə bir əməliyyatı dəstəkləməkdən imtina edərək müzakirələrə başlamağın səmərəli olacağını qeyd etdi. Çin də gərginliyi minimuma endirmək üçün diplomatik danışıqların həlledici olacağını bildirdi. 1960-70-ci illərdə ABŞ-ın Çin və Tayvan siyasətinə münasibəti dəyişmiş, diplomatik tanınma Çin Respublikasından Çin Xalq Respublikasına keçmiş, həmçinin "iki Çin" siyasətinin qəbul edilməsi ilə bağlı müzakirələr aparılmışdı. 1971-ci ildə ÇXR-in Çinin tək təmsilçisi olması ilə BMT-yə üzv olmasından 1972-ci il yaxınlaşmasına qədər olan dövrdə Tayvana yaxın kiçik adalar Çin ordusu tərəfindən bombalanmışdır.

1972-ci ildə Tayvan üçün "tək ölkə-iki sistem" modeli ortaya atıldı. Bu modelin təşəkkül tapması üçün hüquqi zəmin işlənib hazırlandı. Modelə görə ÇXR sosialist idarəetmə sistemində qalmağa davam edəcək, Tayvan da öz kapitalist quruluş və həyat tərzindən imtina etməyəcəkdi. Eyni şərtlər Honq Konq və Makao adaları üçün də təklif edilmişdi. Çinin islahatçı siyasəti nəticəsində Tayvanla ticarət əlaqələri qurulmuş, qarşılıqlı investisiya təşəbbüsləri ortaya atılmışdır. 1987-ci ildə adadan Çinə ailəsini ziyarət etmək üçün gələnlərə qoyulan qadağa götürülmüşdü. 1988-ci ildən Tayvan təkpartiyalı rejimdən imtina etmiş və 1996-cı ildə ilk dövlət başçısını seçmişdir [3, s.159]. Xüsusilə, 1990-cı illərdə Çin-Tayvan yaxınlaşması üçün əlverişli şərait yaranmışdı. Qərblə əlaqələri pisləşən Çin regional əməkdaşlığa daha çox diqqət ayırmışdır. ÇXR prezidenti Xu Szintao (2003-2013) Çinin sülhpərvər yüksəlişi və dünyaya adaptasiya prinsiplərini müdafiə edərkən Tayvana münasibətdə status-qvonun saxlanılmasını məqsədəuyğun görmüşdür. O, Tayvan mövzusunda əvvəlki liderlərə nəzərən daha yumşaq və tolerant tərzi ilə seçilirdi. Onun yanaşmasına görə "Tayvan Çin Xalq Respublikasına məxsusdur" ifadəsi əvəzinə, "Çin Tayvan (ÇR) və kontinent Çinindən (ÇXR) ibarətdir və ikincisi Çinin yeganə qanuni təmsilçisidir" ifadəsi daha məqsədəuyğun idi. 2003-cü ildə ABŞ prezidenti C.Buş ÇXR-in baş naziri Vin Tsziabao ilə görüşündə "Tayvanla qitə arasında əlaqələrin qopması ilə nəticələnəcək hər hansı təktərəfli qərarların yanında deyilik" ifadəsini işlədərək həmin dövrdə Tayvanın referendum ilə ayrılma cəhdlərinə olan münasibətini açıq şəkildə ifadə etmişdir. ABŞ diplomatik və ya hərbi sferada Çinlə üzləşməyin məntiqli nəticələr doğurmayacağını bu ifadə ilə diqqətə çatdırmışdır. Çin ABŞ-ın bu dəstəyindən yararlanaraq bir çox dövlət rəsmiləri, beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlər həyata keçirmiş və Tayvandakı referendumu dəstəkləməmək üçün fikir formalaşdırmışdır. Burada təbii ki, onun iqtisadi gücünün, qarşılıqlı maraqların, beynəlxalq aləmdəki nüfuzunun önəmli yeri var idi. Referendum həyata keçirilməsə də, prezident Xu Buşdan onlara dəstəyi artırmağı istəmişdir [4, s.101]. 2004-cü ildə hər iki prezident bu mövzu ətrafında üç görüş həyata keçirmişdir. Tayvanın separatçı fəaliyyətlərinin regionda stabilliyi pozduğunu dilə gətirən prezident Xuya cavab olaraq C.Buş ABŞ-ın "vahid Çin"ə sadiq qaldığını və Tayvanın müstəqilliyini tanımayacaqlarını ifadə etmişdir.

Tayvanın əhəmiyyətini başa düşmək üçün Çin, ABŞ və yerli hökumətin Tayvan boğazındakı maraqlarını müəyyən etmək lazımdır. İqtisadi təhlükəsizlik baxımından boğaz Çin üçün əhəmiyyət daşıyır. Çinin neftə tələbatı olduğundan qərbdən, əsasən İran körfəzindən gələn marşrutlar Malakka boğazını keçərək onun şərq limanlarına daxil olur. Bu baxımdan boğazda baş verəcək bir insident ABŞ-ın müdaxiləsi ilə nəticələnərsə, Çinin enerji təhlükəsizliyi ciddi problemlərlə üzləşəcək. Sakit okeanda bir ada olmağına baxmayaraq Tayvan ABŞ üçün hərbi baza rolunu oynayaraq regionun qüvvələr balansına təsir göstərir. Həmçinin o, ABŞ-ın ticarət əməkdaşlarından biridir. ABŞ-ın ona silah satışı Çinlə münasibətlərə təsir göstərən amillərdəndir. 1979-cu ildə ABŞ ÇXR-lə rəsmi diplomatik əlaqələr qursa da, Tayvanla əlaqələri itirməmək üçün "Tayvanla əlaqələr haqqında qanun"un imzalanmasına nail olmuşdur. Bu qanunla Tayvana hərbi və digər dəstəyin göstərilməsi üçün hüquqi zə-

min yaradıldı. 1996-cı ildə ABŞ Tayvana 500-dən çox Stinger zenit-raket kompleksinin satışını həyata keçirdi [3, s.163]. Bu addım Çin tərəfindən yaxşı qarşılanmadı və istinad kimi 1982-ci il "Çin-ABŞ birgə bəyannaməsi" göstərildi. Bəyannaməyə görə ABŞ Tayvana silah satmaqdan imtina edəcək və satışın miqdarını hər keçən il minimuma endirəcəkdi. Statistikaya nəzər saldıqda isə satış miqdarının hər il artdığı müşahidə olunur. Belə ki, 1990-2000-ci illərdə silah satışı 16.9 mlrd. dollar idisə, 2000-2010-cu illərdə bu rəqəm 27.8 mlrd. dollar olmuşdur [5, s.26]. Bu o deməkdir ki, ABŞ 1982-ci il bəyannaməsinin şərtlərini pozmuşdur. Lakin o, Tayvanla bağlı qanunun daxili öz qanunvericiliyinə uyğun olduğunu göstərir və özünə haqq qazandırırdı. 2008-ci ildən sonra Çinin satışlara verdiyi reaksiyalar ABŞ-ın qəraralma mexanizminə təsir göstərirdi. Belə ki, ABŞ Əfqanıstan və İraqdakı hərbi əməliyyatlarda, Şimali Koreya və İranın nüvə proqramı kimi məsələlərdə, həmçinin beynəlxalq maliyyə problemlərində Çinin əməkdaşlığına ehtiyac duyurdu. Məhz bu səbəbdən o, Tayvan amilindən istifadə etməklə Çini əməkdaşlığa vadar edirdi. 2008-ci ildə Tayvanda iqtidar dəyişmiş, Ma Yin Tzeou baş nazir olmuşdu. O, 2012-ci ildə bir daha seçilmişdir. Onun hakimiyyətə gəlişi ilə Çin-Tayvan əlaqələri müsbət yöndə inkişaf etməyə başladı, ancaq silah satışları ilə bağlı problem hələ də qalmaqda idi. Son 15 ildə Tayvanın müdafiə xərclərinin digər illərə nəzərən azaldığı, Çinin hərbi büdcəsinin isə artdığı müşahidə olunmuşdur. 2003-cü ildə Tayvanın hərbi büdcəsi 7.6 mlrd. dollar idisə, 2015-ci ildə bu rəqəm 10.5 mlrd. dollar olmuşdur. Bu da xərcləmələrin azalması ilə büdcəyə qənaət edilməsi mənasına gəlir. Çinin hərbi büdcəsinə gəldikdə isə 2003-cü ilin göstəricilərinə görə o, təqribən 22 mlrd. dollar idi. Həmin rəqəm 2015-ci ildə 120 mlrd. dollara bərabər olmuşdur. Çinin 2005-ci ildə qəbul etdiyi "Bölünməzlik qanunu"na (Anti-Secession Law) əsasən o, adaya bu hallar baş verdikdə hərbi müdaxilə və güc tətbiq edə bilər: Tayvan müstəqillik əldə etməyə çalışarsa; daxildə ayaqlanma çıxarsa; nüvə silahı almağa çalışarsa; Tayvana xarici qüvvələr müdaxilə edərsə [5, s.27-28]. Çin "bir ölkə-iki sistem" modelini dəstəkləsə də, Tayvanın qarşı sahillərinə raket başlıqları quraşdırmağa davam edir. 2013-cü ildən etibarən Tayvanı hədəf alan ballistik raketlərin sayının ən az 1600-a qədər olduğu qeyd edilir. Tayvan münaqişəsi 70 ilə yaxındır ABŞ-Çin münasibətlərində təzyiqi artıran amillərin başında gəlir. Çin Xu Szintaonun xarici siyasət prinsiplərini əsas alaraq "tək ölkə-iki sistem" modelini dəstəkləməyə davam edir və sabit vəziyyətin qorunub saxlanılmasından razıdır. Çinin adaya müdaxilə etmə ehtimalı olarsa, Tayvan müdafiə olunmaq üçün ABŞ-ın hərbi və siyasi dəstəyinə ehtiyac duyacaq. Tayvanın müstəqilliyini elan etməsinə qarşı Çin onu bu düşüncədən daşındırmaq üçün adaya qarşı mövqeləndirilmiş raket sayını artırır. Həm Çin, həm də ABŞ münaqişənin sülh yolu ilə həllindən yana olsa da, iki tərəf arasındakı gərginlik münasibətlərə uzun bir müddət öz təsirini göstərəcəkdir.

Soyuq müharibə dövründə ortaya çıxan Tayvan münaqişəsi 1990-cı illərin ortalarında da aktuallığını qoruyurdu. Tayvan liderinin Vaşinqtona səfəri və münasibətlərin gərginləşməsini buna misal göstərmək olar. 2001-ci ildən Çinlə münasibətlər əvvəlki səviyyəsinə qayıtdığına görə ABŞ Tayvanı qorumaq siyasətindən imtina etdi və "vahid Çin" siyasətini dəstəkləyərək Tayvanın sülh yolu ilə Çinə birləşməsindən yana olduğunu bildirdi. Çinlə strateji əməkdaşlığın önəmi artdıqca ABŞ bu siyasətə sadiq qalmış, Tayvanı onun tərkib hissəsi kimi qəbul etmişdir. Bununla yanaşı Tayvanla hərbi, iqtisadi və mədəni əlaqələr qurmağa davam etmişdir. Tayvanın iqtisadi əhəmiyyəti də əlaqələrə təsir göstərir. O, "dörd Asiya pələngi"ndən biri olmaqla, regionun ən inkişaf etmiş bölgələrindəndir. Xüsusilə, sənaye sahələrinin inkişafı və texnologiya üzrə ixtisaslaşmışdır. Həmçinin o, dünyanın ən mühüm ticarət mərkəzlərindən biri hesab olunur. Diplomatik sferada böyük uğurları olmayan Tayvan (sadəcə bir neçə üçüncü dünya ölkəsi tərəfindən tanınmışdır) iqtisadi sferada uğurlarını artırmaqdadır. 2002-ci ildə o, ABŞ-ın dəstəyi ilə ÜTT-yə üzv qəbul edilmişdir. Bazar imkanlarını böyütmək və əlaqələrini genişləndirmək baxımından Çinlə ticarətin böyük rolu olmuşdur. Tayvan əmtəə ixracatının dörddə birindən çoxunu Çinlə etməkdə və bu amil onun Çindən asılılığını artırmaqdadır.

Strateji önəmi və regiona təsir qabiliyyətinə görə ABŞ Tayvan amilindən daima yararlanmağa çalışıb. 1971-ci ildə onunla rəsmi əlaqələr kəsildikdən və ÇXR-lə əlaqələr qurulduqdan sonra belə ABŞ bu ada ilə bağlarını kəsməmiş və onunla mədəni, iqtisadi və hərbi əlaqələrini qorumaq üçün müxtəlif yollara əl atmışdır. Həmin cəhdlər Çinlə münasibətlərə pis təsir etdikdə vaxtaşırı bu faktor arxa plana atılsa da, ondan tamamilə imtina edilməmişdir. Tayvan münaqişəsi iki ölkə əlaqələrində xüsusi yerə malik olsa belə, yeni mərhələdə onun aktuallığı 1990-cı illərdə və ya daha əvvəl olduğu

kimi deyil. Ancaq yenə də, ABŞ ondan Çinə və regiona qarşı təsir vasitəsi kimi istifadə etməkdədir və bunun uzun müddət belə olacağı güman edilir. 1990-cı illərdən yaxınlaşmağa başlayan Çin-Tayvan əlaqələri onların bir-birini sosial, siyasi, mədəni və başqa formalarda dərk etməsinə kömək etmişdir. Buna görə Çin əlaqələrin yaxınlaşması baxımından önəmli addımlardan birini atmışdır. Adanın statusu ilə bağlı yanaşmalarda isə Çin "vahid Çin" siyasətinin üzərində durur. O, fərqli iki sistemin eyni tərkibdə mövcud ola biləcəyini və zamanla inteqrasiyanın mümkün olacağını iddia edir. Bunları deyərkən o, inteqrasiyanın sülh və müzakirələr yolu ilə baş tutacağına inandığını qeyd edir.

Nəticə. Bu gün ABŞ və ÇXR arasında Tayvan məsələsinin həll edilməsində müxtəlif fikirlərin mövcud olması aydın görünür. ABŞ Tayvan problemini dünyada gedən geostrateji hadisələr çərçivəsində, eyni zamanda, həm özünün, həm də ÇXR-nın maraqlarını nəzərə almaqla həll olunmasını istəyir. ÇXR da Tayvan məsələsinin heç bir halda ikitərəfli münasibətlərə zərər vurmadan çözülməsində maraqlıdır. Amma paralel surətdə, ÇXR bir güllə atmadan Tayvanı özünə qaytarmaq niyyətindədir. Əvvəlcə, Pekin zonada karantin elan edəcək və "boz zona" taktikasından istifadə edərək adanın limanlarına girişi qismən və ya tamamilə bloklayacaq. Bunu etmək üçün Çinin bütün resursları var, yəni dünyanın ən böyük sahil mühafizə donanmasına malikdir. Nəticədə, bu cür hərəkətlər həyati əhəmiyyətli məhsulların və bütövlükdə Tayvan iqtisadiyyatının tədarükünün tamamilə dayandırılmasına səbəb olacaqdır. Çin hökümətinə görə, bu blokada və ya müharibə aktı sayılmayacaq və başqa ölkələr müdaxilə etsə də, bu hərbi əməliyyatların təşəbbüskarı kimi qiymətləndiriləcəkdir. Digər bir variant daha təhlükəlidir. Belə ki, Çin Tayvana raket hücumları təşkil etmək və adanın ətrafını minalamaq istəyir. Bu isə Çinin beynəlxalq arenada nüfuzuna zərər vuracağına əyani sübutdur. Tayvan ətrafında baş verən hadisələr həm mütərəqqi dünya dövlətlərini, həm də ABŞ-ı ciddi surətdə narahat edir. Amma ümidlər də var ki, bu məsələ sivil qaydalar və beynəlxalq hüquq normaları çərçivəsində həll olunacaqdır.

ƏDƏBİYYAT

1. Kissinger H.L. "On China", Penguin Books, London, 2012, s.406.
2. The Taiwan Straits Crises: 1954-1955 and 1958. - https://history.state.gov/milestones/1953-1960/taiwan-strait-crises [07.06.2024].
3. Pekcan C.R. Çinin uluslararası sisteme bakışı ve ABD'ye yönelik dış politikası. İstanbul: Çanakkale, 2015, 236 s.
4. Quansheng Z.K. Beijing's Dilemma with Taiwan: War or Peace. New York: Earth, 2005, 218 p.
5. Shenkar O.A. Çin yüzyılı. İstanbul: Truva, 2007, 264 s.

ХАЙЯМ ИСМАИЛЗАДЕ
Бакинский Государственный Университет,
Кафедра международных отношений,
доктор философских наук, и.о. доцента

ОБЗОР КОНФЛИКТНЫХ МОМЕНТОВ В ОТНОШЕНИЯХ США И КНР

В статье представлены сведения об исследовании противоречивых моментов в развитии отношений США и Китайской Народной Республики после окончания «холодной войны», особенно вопроса Тайваня. Эта проблема вызывала постоянную напряженность между двумя государствами на протяжении многих лет, в зависимости от развития времени формировались разные мнения, предпринимались совместные усилия и достигались общие соглашения, и все это широко отражено здесь.

Ключевые слова: США, КНР, Тайвань, Япония, ООН, Филиппинский архипелаг, Всемирная Торговая Организация, холодная война, дипломатия, независимость.

KHAYYAM ISMAYILZADEH
Baku State University,
Department of International Relations,
Doctor of Philosophy in Political Science, Acting Associate Professor

AN OVERVIEW OF THE CONFLICTING POINTS IN US-PRC RELATIONS

The article provides information on the investigation of conflicting points in the development of relations between the United States and the People's Republic of China after the end of the Cold War, especially the issue of Taiwan. This problem has caused constant tension between the two states for many years, different opinions have been formed depending on the development of time, joint efforts have been made and general agreements have been reached, all of which are widely reflected here.

Keywords: USA, PRC, Taiwan, Japan, UN, Philippine archipelago, World Trade Organization, cold war, diplomacy, independence.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 iyun 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: s.e.ü.f.d. Afət Güləliyeva, t.e.d. Sevinc Yusifzadə.